# BİZ BİRLİKDƏ GÜCLÜYÜK!

## *6 fevral 2023-cü ildə Türkiyə Respublikasının 10 vilayətində baş vermiş dəhşətli zəlzələ hadisəsindən təsirlənərək qardaş Türk xalqına həsr edilmiş elegiya*



Türk milləti haqqa tapınmaqla öz şərəfi, şöhrəti, şanı, haqq-ədaləti ilə dünyanı titrətməsi və dünya üzərində ədalətlə hökmranlıq etməsi ilə tanınan, ad-san qazanmışqəhrəman bir millətdir. Ulu Yaradan həmişə başqa millətlərdən ayırdığı, xüsusiləşdirdiyi, fərqləndirdiyi, xoş müjdələrlə müjdələdiyi, seçilmiş millətlərin başından xoş günləri də, bəd günləri də əskik etmir. Xeyirlə şər həmişə qardaş olmağı ilə bərabər, həmdə rəqabətdə olublar. Onlar həm bu qardaşlığı,həmdə bir-birləri ilə mübarizələrini Türk millətinə də göstəriblər. Yəni min illər boyu dünyanın super güclüsü adını qazanan və bu adı indi də dünyanın çətin, keşməkeşli zamanında min bir əzabla qoruyub saxlayan Türkiyənin, ümumilikdə Türk xalqlarının, Türk dünyasının başına şad günlər gəldiyi kimi, müsibətlər də gəlib. Azərbaycan, qazax, qırğız, özbək və türkmən qardaşları 70 il qırmızı, qanlı bir rejimin boyunduruğu altında qalmağa məcbur olub. Bu illər ərzində bu torpaqlar talanıb, sərvətini özgələr acgözlüklə, zəli qan soran kimi sorub, mənimsəyib, talan edib. Haqq bağıran səsləri də ömürlük susdurub gedərgəlməz yollara göndəriblər. Yaradan sadəcə Azərbaycan türklərini, yəni bizi 200 illik bir imtahana məcbur edib. Bu 200 ildə biz nələr görmədik!? Bizim millətin başı hansı bəlaları çəkmədi ki!? Ancaq hər şeyə rəğmən Allahın imtahanıdır deyib susduq və Yaradanın bu dərdə verdiyi dərman da 200 il sonra -2020-ci ilin sentyabrın 27-də gəldi. 2000 illik bəd günlərdən sonra 44 günlük Vətən müharibəmizdə Azərbaycan və onun türk qardaşları mənəvi qardaşlıqlarını Qarabağın azad olunması ilə zirvə nöqtəsinə, kuliminasiya nöqtəsinə gətirdilər. Sizi inandırıram ki, qardaşlıq hisslərini bu günə qədər içində yaşayan bu qardaşlar heç vaxt bu qədər şad, şən, qürurlu, ən əsası isə birlik, bir olmamışdılar. Təbii ki, bunların olmamasının günahı onlarınözlərində deyildi.

Azərbaycan türklərinin Möhtəşəm Vətən savaşından 3 illik bir zaman keçdi. İndi Türk qardaşlarımızla birlikdə Qarabağı yenidən qurmağa başlamışdıq.İki qardaş ölkənin liderləri qara günlərdən ağ günlərə çıxmış Qarabağımızda beynəlxalq hava limanlarının açılışının rəmzi olan qırmızı lentləri birlikdə kəsdilər. Qardaşlığımızın zirvəsini yaşayırdıq və günlərimiz çox xoş keçirdi. Pis gündə də, xoş gündə də bir yerdə olmaq sözünü vermişdik və bu sözü tuturduq. İnanırdıq ki, Yaradan bizi artıq indiyə kimi imtahana çəkib və yəqinki, innən belə imtahanımız artıq qurtarıb. Bundan sonra ancaq o imtahanın mükafatını, yəni xoş günlərini yaşayacağıq. Bu duyğular, düşüncələr, xoş anlar davam etdi, ta ki 6 fevral 2023-cü il tarixinə kimi...

Səhər hamı kimi mən də yuxudan oyandım, ilk olaraq səhər verilişlərini izləmək, yeni günün yeniliklərindən xəbərdar olmaq üçün televizoru açdım və kanalları izlədim. Düşünürdüm ki, hər şey həmişəki kimi yaxşı olacaq, şad xəbərləri eşidib qürurlanacağam. Televizorda ölkəmizdə və qardaş Türkiyəmizdə mədəniyyət, ictimai-siyasət, idman və s. sahələrdə baş verən müsbət yeniliklər, inkişafın dinamikasından xəbər verən məlumatları izləyəcəyəm. Lakin 6 fevral tarixində, səhər saatlarında aldığım xəbər məni çox sarsıtdı. O qədər ki bunu sözlə ifadə etmək mənim üçün çətin idi, mümkün deyildi. Sanki bütün dünya başıma yıxıldı və özümü çox pis hiss etdim. Bu hisslər o qədər dərin və sarsıntılı idi ki, həmin gündən keçən 1 həftə 1 gün o hissləri bir an da olsun dəyişdirə bilmədi, bilməzdi də... Çünki dünyanın o başında yaşayan bir qardaşın ayağına bir daş, bir çınqıl dəysə, tikan batsa, üzünü bir xəfif rüzgar üşütsə, bu dünyanın bu başında yaşayan qardaşın matəmi olar. Düşündüm ki, kaş bu xəfif bir külək olardı, kiçik bir daş çınqılı olardı, bir ətirli gülün tikanı olardı. Ancaq həyatda hər şey bizim istədiyimiz kimi olmur axı... Gözləmədiyimiz xəbər gəlmişdi. Səhərəyaxın qardaş Türkiyəmizin 10 vilayətində 7,7 bal gücündə zəlzələ baş vermiş və ilk olaraq 76 nəfərin həyatını itirməsi xəbəri bizi sarsıtmışdı. Bununla belə Uca Allaha yalvarmışdım ki, ilahi, sənə yalvarıram, fəlakət qurbanlarının sayı artmasın. Həmin gün mütəmadi olaraq xəbərləri izləsəm də məcburi olaraq televizoru söndürüb dərslərimlə də məşğul olurdum. Ancaq ürəyim, qəlbim orada - qardaşlarımın yanında qalmışdı. Günün sonunda isə yenə də televiziya vasitəsi ilə qardaş ölkədə baş vermiş zəlzələ barədə xəbərləri izləməyə ürək ağrısı ilə davam etdim. Yenə də qəfləti gözləmədiklərimiz bir-bir başımıza gəlirdi. Səhər faciə qurbanlarının sayı 76 olduğu halda, indi itki sayı 3 minə yüksəlmişdi. Bu xəbərlər bizi nə qədər kədərləndirsə də fərqində deyildik ki, bizi qürurlandıracaq anlar da olacaq. Həmin qürurlandırıcı anlar, həmin xəbərlər bizi çox intizarda saxlamadı, çox gecikmədi. Çox keçmədən öyrəndim ki, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin qəhrəman xilasedicilərinin 300-dən çox əməkdaşı qardaş Türkiyəyə yollanıb. Onlar Türkiyəyə çatıblar və hətta bir an belə vaxt itirmədən dağıntılar altında qalan bacı-qardaşlarımıza kömək etməyə başlayıblar. Kədərimin ölçüsü sonsuz olsa da bu xəbər məni qürurlandırdı, ruhlandırdı. Həmin günü belə ifadə edim ki, kədər və qürur hissinin yaratdığı təzad mənim qanadlarımı sanki gücləndirir, gah da qanadlarım gücdən düşür. Fikrim, hissim, xəyalım, ilhamım məni rahat buraxmır və durmadan narahat edirdi. Fikirləşirdim ki, mən bir Azərbaycan türkü kimi, bir türk oğlu türk kimi qardaş ölkəmizə maddiliyindən və ya mənəviliyindən asılı olmayaraq, hər cür dəstək olmalıyam. Təkcə mən yox, hamımız. Bütün Azərbaycan türkü, bütün Azərbaycan xalqı! Bütün türk dünyası! Biz birlikdə olmalıyıq, dost yox, qardaş kimi birbirimizə kömək etməli, dəstək olmalı, sona qədər çiyin-çiyinə çalışmalıyıq! Axı biz birlikdə güclüyük!? Bu sözlər o gün Türkiyə-Azərbaycan qardaşlığının şüarı idi və bu şüar bizim dilimizdən çıxıb digər Türk dövlətlərinin dilində səslənirdi. Bu, nə idi? Bu, əsl qardaşlıq çağırışı idi! Məni rahat buraxmayan bu hisslər nəticəsində 6 fevral tarixində, gecə saat 23 radələrində gərgin dəqiqələrimin məhsulu olaraq "Qardaşlıq çağırışı" adlı şeirimi yazdım. Bu şeiri yazmağımın əsas məqsədi bu dar gündə, bu çətin, bu imtahan günündə qardaş Türkiyəmizə dəstək olmaq və bütün Türk dünyasını qardaşlıq işığında birləşdirmək, birliyə çağırmaq idi. Bu şeirimlə bildirmək istədim ki, Türk dünyası bir dəryadır. Biz isə o dəryanın zərrələri. Hamımız zərrə qədər də olsa, çalışıb Türkiyəmizə dəstək olmalıyıq. Çünki ulu babalarımız, atalarımız "Damadama göl olar, yağa-yağa sel olar" deyib. Onu da qeyd edim ki, mən şeiri yazdıqdan sonra, 9 fevral 2023-cü il tarixdə çox hörmətli və dəyərli İslam müəllim Mehrəliyevin və Mətanət xanım Əliverdiyevanın təqdim etdiyi, Xəzər Televiziyasında yayımlanan "Xəzər axşamı" verilişinin 6 fevral zəlzələsinə həsr edilən növbəti buraxılışında çıxış edərək "Qardaşlıq çağırışı" şeirimi səsləndirdim. İndiki yazımda bu mövzuya qısa toxundum, çünki gələcəkdə təfərrüatı ilə və müfəssəl olaraq bununla bağlı oxucularıma bir təqdimatım olacaq. Hələlik oxucuların icazəsiylə bir az onları gözlədəcəyəm.

Yekun olaraq onu demək istəyirəm ki, zəlzələdən 1 həftədən də çox vaxt keçməsinə baxmayaraq, matəmimiz hələ də bitməyib və bitməsini də gözləmirik, ta ki o vaxta qədər ki, Uca Allahım bunun ardınca türk millətinə olduqca yüksək sevincli günlər bəxş edəcək. Çünki biz matəmimizi də, xoş günlərimizi də yaşamaqdan çəkinməmişik və hər ikisini vaxtında, birlikdə etmişik. Çox vaxt bəd günlər də, ölkənin başı üstündə qara buludların gəzdiyi vaxtlar da eyni məramlainsanları birləşdirir. 6 fevral və ondan sonra yaşadığımız bu 1 həftədən çox vaxt buna bir misaldır. Azərbaycan-Türkiyə olaraq, bütün Türk dünyası olaraq bu günlərdə bütün dünyaya car çəkdik və çəkirik ki, biz türkük, qardaşıq, birik, diriyik, birlikdəyik! Yer də, göy də bir olsa, hər şeyi titrədər, lakin qardaşlığımızı əsla sarsıda bilməz! Çünki biz birlikdə güclü olmuşuq, oluruq və olacağıq!

Biz bu fəlakətin bizə yaşatdığı dərin sarsıntını, hüzn və kədər hissini sona qədər qəlbimizdə yaşayıb bu fəlakəti bir an olsun yaddan çıxarmayacağıq. Həmişə olduğu kimi qardaş Türkiyəmizə sona qədər dəstəyik və dəstək olacağıq! Fəlakət nəticəsində həyatını itirmiş 35000-dən çox bacı və qardaşlarımıza Allahdan rəhmət diləyir, 105000-dən çox yaralımıza da Allahdan şəfa diləyirəm. Millətimizin başı sağ olsun!Səninləyik, Türkiyəm!

*14.02.2023*

*Sevindik NƏSİBOĞLU,*
*9-cu sinif şagirdi, şair-publisist, AJB üzvü*